**AZƏRBAYCAN RESPUBLİKASININ MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI**

# Q Ə R A R

**№ 1951100028**

**Bakı şəhəri** **" 16 " iyul 2019-cu il**

## "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığortaçı tərəfindən icbari tibbi sığorta ilə bağlı ödənilən sığorta haqlarına dair hesabat forması və onun təqdim edilməsi Qaydası"nın təsdiq edilməsi barədə

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1441-VQD nömrəli Qanununun tətbiqi və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 31 yanvar tarixli 502 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 4 oktyabr tarixli 288 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsi"nin 4.10.12-ci yarımbəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyəti

**Q Ə R A R A A L I R:**

**1.** "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığortaçı tərəfindən icbari tibbi sığorta ilə bağlı ödənilən sığorta haqlarına dair hesabat forması və onun təqdim edilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

**2.** Hüquq və lisenziyalaşdırma departamentinə (Əfqan Baxışov) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**İdarə Heyətinin sədri**
**vəzifəsini icra edən** **İbrahim Alışov**

**“Təsdiq edilmişdir”**
Azərbaycan Respublikasının
Maliyyə Bazarlarına Nəzarət Palatası
Qərar № 1951100028
16 iyul 2019-cu il
**İdarə Heyətinin sədri vəzifəsini icra edən**

__________________________

**İbrahim Alışov**

# İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığortaçı tərəfindən icbari tibbi sığorta ilə bağlı ödənilən sığorta haqlarına dair hesabat forması və onun təqdim edilməsi Qaydası

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununun (bundan sonra – Qanun) 15-11.18-ci maddəsinə əsasən hazırlanmışdır və “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sığortaçı tərəfindən icbari tibbi sığorta üzrə ödənilən sığorta haqları barədə hesabatın forması və onun təqdim edilməsi qaydasını müəyyən edir.

1.2. Bu Qaydada istifadə olunan anlayışlar “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda müəyyən olunan mənanı ifadə edir.

## 2. İcbari tibbi sığorta üzrə ödənilən sığorta haqları barədə hesabat forması və onun təqdim edilməsi qaydası

2.1. Qanunun 15-11.7-ci maddəsinə müvafiq olaraq sığorta haqqı “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan sığortaçılar tərəfindən aylıq olaraq hesablanır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq icbari tibbi sığorta fonduna ödənilir.

2.2. “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan sığortaçı tərəfindən icbari tibbi sığorta

üzrə ödənilən sığorta haqlarına dair hesabat forması bu Qaydaya 1 saylı Əlavə ilə müəyyən edilir.

2.3. Bu Qaydanın 2.2-ci bəndində müəyyən edilmiş hesabat sığortaçının İdarə Heyətinin sədri və baş mühasibi tərəfindən imzalanır və həmin sığortaçının möhürü ilə təsdiqlənir.

2.4. Sığortaçı bu Qaydanın 2.2-ci bəndində müəyyən edilmiş hesabatı rüblük əsasda, müvafiq rüb başa çatdıqdan 20 gün müddətində kağız və elektron daşıyıcılarda İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə təqdim edir.

## 3. Yekun müddəalar

Bu Qayda 2020-ci ilin yanvarın 1-dən qüvvəyə minir.

**"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığortaçı tərəfindən icbari tibbi sığorta ilə bağlı ödənilən sığorta haqlarına dair hesabat forması və onun təqdim edilməsi Qaydası"na 1 saylı Əlavə**

## İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta üzrə sığortaçı tərəfindən icbari tibbi sığorta ilə bağlı ödənilən sığorta haqlarına dair hesabat

Sığortaçının adı:

____________________________________

Hesabat dövrü:

____________________________________

(manatla)

| Sığorta haqlarının ödənilməsi dövrü | Dövr ərzindəbağlanmış sığorta müqavilələri üzrəhesablanmış sığorta haqları | Dövrün əvvəlinəalınmalı olan sığorta haqları | Dövrün sonuna alınmalı olan sığorta haqları | Dövr ərzində xitam verilmiş sığorta müqavilələri üzrəsığorta haqları | Sığortalı tərəfindən sığortaçıya ödənilmiş xalis sığorta haqlarının məbləği (süt.II + süt.III–süt.IV–süt.V) |
|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI |
| I ay üzrə | | | | | |
| II ay üzrə | | | | | |
| III ay üzrə | | | | | |
| **Yekun:** | | | | | |

İdarə Heyətinin sədri: ______________________________

Baş mühasib: _____________________________________

Hesabatın təqdim olunma tarixi: ____________________